# Ölkəni tənəzzüldən tərəqqiyə aparan Lider

*Ötən əsrin 60-cı illərində Azərbaycanın keçmiş ittifaq respublikaları arasında geridə qalması, xalqın kasıbçılıq içərisində yaşaması, şəhər və kəndlərin miskin görkəmi, durğunluq, iqtisadiyyatın ləngər vurduğu, kənd təsərrüfatının primitivliyi, sənaye sahələrinin çox az olması acı bir reallıq idi. Belə ağır bir dönəmdə - 14 iyul 1969-cu ildə Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda ölkənin birinci katibi seçildi. Azərbaycanın yeni dövrü başlandı, həyatın bütün sahələrində islahatlar aparıldı, kadrlara qarşı tələbkarlıq artırıldı, inkişafa mane olanlar isə uzaqlaşdırıldı. Ulu Öndər sovet hakimiyyəti illərində 1969-1982-ci illərdə Azərbaycan Respublikasını keçmiş Sovetlər İttifaqındakı ən axırıncı yerlərdən ən qabaqcıl mövqeyə yüksəltmişdir. Həmin dövrdə ölkədə bütün sahələr: kənd təsərrüfatı, sənaye, nəqliyyat, elm, təhsil, mədəniyyət, ədəbiyyat və incəsənət, səhiyyə, rabitə... böyük sürətlə inkişaf etdirildi. Azərbaycanda böyük intibah baş verdi. Ölkə həm qabaqcıl sənaye mərkəzinə çevrildi, həm də böyük kənd təsərrüfatı potensialına malik oldu. Ümumittifaq səviyyəsində Azərbaycan inkişaf tempinə görə qabaqcıl ölkələrdən oldu. Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində üzümçülərin və pambıqçıların, heyvandarların, sənaye işçilərinin böyük əksəriyyəti keçmiş SSRİ-nin ən yüksək fəxri adına - Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər. Yüzlərlə əmək adamı orden və medallarla təltif olundu. Azərbaycanın Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi təşkil olundu.*

Ulu öndər Heydər Əliyev tez-tez respublikanın bölgələrinə səfərlər edər, əmək adamları ilə görüşərdi. Bu dahi şəxsiyyət Ağdam rayonuna daha çox diqqət və qayğı göstərirdi. Bu, heç də səbəbsiz deyildi. Ağdam ermənilərin sıx məskunlaşdığı keçmiş Dağlıq Qarabağla qonşu idi. Ulu Öndər Heydər Əliyev bir neçə dəfə - 1973, 1974, 1981 və 1982-ci illərdə Ağdam rayonuna səfər edib. Ulu öndər 1973-cü ildə Ağdamda səfərdə olarkən demişdi: "Mən arzu edirəm ki, Ağdam gündən-günə çiçəklənsin. Həm şəhər, həm də kəndlər dastanlarda, şeirlərdə olduğu kimi, Azərbaycanın gözəl bağ-bağatlı guşəsi olsun". Dahi şəxsiyyət sadə insanlarla, xüsusilə zəhmət adamları ilə söhbət etməyi çox xoşlayırdı. 1981-ci il iyul ayının 10-da respublika rəhbərinin Ağdam rayonuna növbəti səfəri də əsl bayrama çevrildi. Ağdamlıların dostu və qayğıkeşi səfərə rayonun ən iri üzümçülük təsərrüfatı olan H.Hacıyev adına sovxozdan başladı. Sovxozun üzümçülük briqadiri, "Oktyabr bayrağı", "Qırmızı əmək bayrağı" ordenli, Respublika Dövlət Mükafatı laureatı Əkbər Abdullayevlə səmimi söhbəti xatirələrdən silinmir. Üzümçü briqadir bütün dövlət təltiflərinə Heydər Əliyevin qayğısı sayəsində nail olmuşdu. Sonra kənd ağsaqqalları ilə görüşən Ulu Öndər onlarla xatirə şəkli çəkdirdi. Sonra başqa bir sovxoza gələn Heydər Əliyev Əkbər Quliyevin başçılıq etdiyi komsomolçu-gənclər briqadasının üzümçüləri tərəfindən də böyük məhəbbətlə qarşılandı. Heydər Əliyev sovxozun iqtisadiyyatı, sosial problemləri, fəhlələrin məişət şəraiti ilə maraqlandı, sonda üzümçü qızların xahişi ilə onlarla xatirə şəkli çəkdirdi. Həmin gün dahi rəhbərin 6 dəfə Ümumittifaq sosializm yarışının qalibi olmuş, adı Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin şərəf kitabına yazılmış Sosialist Əməyi Qəhrəmanı Xuraman Abbasovanın başçılıq etdiyi Lenin adına təsərrüfatın pambıqçıları, taxılçıları və mexanizatorları ilə görüşü yüksək əhvali-ruhiyyə ilə keçirildi. Sonra Heydər Əliyev hər hektardan 60 sentner pambıq, 80 sentner taxıl istehsal edən B.Heydərovun briqadasında taxıl biçininə baxdı, kombaynçılarla səmimi söhbətlər etdi və dedi ki, sizin təcrübənizi təkcə rayonda deyil, respublikada da geniş yaymaq lazımdır. Sonra Ağdam şəhərinə gələn respublika rəhbəri "Əmək şöhrəti" memorialının qırmızı lentini kəsdi, əmək və müharibə veteranları ilə səmimi söhbət etdi. Onlar firavan həyat üçün dahi rəhbərimizə minnətdarlıqlarını bildirdilər. Heydər Əliyev bildirdi ki, "Əmək şöhrəti" memorialının açılışı böyük ictimai-siyasi hadisədir. Bildiyiniz kimi, əmək insanın ən şərəfli vəzifəsidir. Fərəhli haldır ki, Ağdamda əməyi sevir və zəhmət adamlarını qiymətləndirirlər. Ötən əsrin 70-80-ci illərində Ağdam rayonunun inkişafı çox sürətlə baş verib. Həmin vaxt rayonda 100 min tondan çox üzüm istehsal olunub. Keçmiş sovet dönəmində Ağdamda istehsal olunan şərabların sorağı ölkənin hər yerindən gəlirdi, bu şəraba tələbat günü-gündən artırdı. Məhz buna görə də Ağdamda onlarla şərab emalı zavodları var idi. Bu sahənin işçiləri, bir sözlə, üzümçülər yüksək əməkhaqqı və mükafat alırdılar. O dövrdə Ağdama milyonlarla pul daxil olurdu. Təbii ki, bu da adamların güzəranını yaxşılaşdırır, ikimərtəbəli yaraşıqlı evlər tikilirdi. Rayonda pambıqçılıq, baramaçılıq da inkişaf edib. Ağdam rayonu respublikada pambıq istehsalına görə ikinci yerdə dayanıb.

Ümummilli liderin Ağdama, ağdamlılara diqqət və qayğısı xalqın təkidli tələbə ilə ikinci dəfə hakimiyyətə qayıtdığı illərdə də davam etdi. Dahi rəhbər 1996-cı il avqust ayının 2-də Ağdam şəhəri və onun ətraf kəndlərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin üçüncü ilində rayon ictimaiyyətinin nümayəndələri ilə Bakı şəhərində görüş keçirdi. Ümummilli lider keçmiş məcburi köçkünlərlə söhbətində Ağdam və onun insanları haqqında dedi ki, Ağdam şəhəri Azərbaycanın qədim və çox böyük tarixə malik şəhərlərindən biridir. Respublikamızın həyatında Ağdam rayonu həm iqtisadi, elmi potensialına, həm də insanların fədakarlığına görə həmişə çox mühüm rol oynamışdır... 1988-ci ildə Ermənistan tərəfindən Azərbaycana qarşı başlanan təcavüzün ilk addımları məhz Ağdama tərəf yönəldilmişdir. Azərbaycanı bütün təhlükələrdən xilas edən, dövlət müstəqilliyini fədakarlıqla qoruyub saxlayan Heydər Əliyev 1998-ci ildə Ağdamın Quzanlı qəsəbəsində seçicilərlə görüşündə yenə də ağdamlıların fədakarlığını yüksək qiymətləndirərək dedi ki, Qarabağsız, Ağdamsız Azərbaycan yaşaya bilməz. Ümummilli lider Ağdamın işğalı ilə bağlı 1998-ci ildə Milli Məclisdəki çıxışı zamanı bildirdi ki, beş ildir ki, bu əhali ağır şəraitdə yaşayır. Ağdam 1993-cü il 23 iyulda əldən getməyib. Ağdam 6 ay ondan əvvəl də boş idi. Amma orada dözüb qalan cəsarətli, qeyrətli adamların hesabına Ağdam o günə kimi işğal oluna bilməyib. Ağır şərtlər altında yaşayan ağdamlılar böyük hörmətə layiqdirlər. Ayrı-ayrı mafioz qruplar haqqında deyilən sözlər Ağdam və Qarabağ əhalisinə aid ola bilməz. Ağdam Azərbaycanın ən gözəl guşəsidir. İnsanların əsrlər boyu yaşadığı qüdrətli bir yerdir. Ağdam bizim hamımız üçün əziz və müqəddəs şəhər və rayondur. Mən Bərdədə və Ağcabədidə qaçqın düşmüş insanlarla görüşdüm. Onların nə qədər daxili mənəvi zənginliyə malik olduqlarını hiss etdim.

Dünya fəlsəfəsində sübut olunub ki, tarixin və dövrün yeni səhifələrini yazmaq ancaq dahi insanlara məxsusdur. Dövlətçilik tariximizin lideri, ulu öndər Heydər Əliyev məhz belə şəxsiyyətdir. Xalqını, Vətənini fədakarlıqla, böyük məhəbbətlə sevən, azərbaycanlı olmağı ilə həmişə fəxr edən Ulu öndər bütün mənalı ömrünü Azərbaycanın müstəqilliyinin qorunmasına, ölkəmizin inkişafına və tərəqqisinə həsr edib. Ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti xalqımızın çoxəsrlik dövlətçilik tarixinə qızıl hərflərlə yazılıb. Dahi şəxsiyyətin qətiyyəti, cəsarəti və uzaqgörənliyi nəticəsində Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunub, dövlətçiliyimiz məhv olmaq təhlükəsindən xilas edilib, respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni tərəqqisində misilsiz nailiyyətlər qazanılıb. Ulu Öndər Heydər Əliyev dövlətçilikdə qeyri-adi müdriklik və uzaqgörənlik istedadına malik olan qüdrətli liderdir. Bu böyük dövlət xadiminin müdriklik və uzaqgörənliyinin hərəkətverici qüvvəsi Vətənə, xalqa, doğma torpağa sonsuz inam və məhəbbətdən, sınaqlardan çıxmış böyük siyasi təcrübədən yoğrulmuşdur. Ulu Öndər deyirdi və dünyaya mesaj verirdi ki, demokratiya ictimai-siyasi sabitliyin, qanunların aliliyinin hökm sürdüyü şəraitdə yaranıb inkişaf edə bilər. Çünki onun hüdudları genişdir. Odur ki, o, hər xalqın mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir. Ona görə də nə burada, nə də Azərbaycandan kənarda heç kəs narahat olmasın: "Azərbaycan demokratiya yolu ilə gedir və gedəcəkdir. Bu, bizim strateji kursumuzun mahiyyətini təşkil edir və biz heç vaxt bu yoldan dönməyəcəyik".

Ölkəmiz uzun illər Ermənistanın işğalından, törətdiyi hərbi cinayətlərdən əziyyət çəkib. 1992-ci il və 1993-cü ilin may ayına kimi havadarlarına arxalanan düşmənin azərbaycanlıların taleyinə vurduğu ağır zərbə, torpaqların zəbt edilməsi, şəhər və kəndlərin əsarətdə qalması, dinc insanların öz dədə-baba yurdlarından didərgin düşməsi Azərbaycanı humanitar fəlakətlə üz-üzə qoymuşdu. Yenicə müstəqilliyini elan edən ölkəmizə qarşı başlanan bu aqressiya təhlükəli həddə çatmışdı. Məhz həmin vaxt qardaş Türkiyə Azərbaycanı təklənməyə qoymadı, onun yanında dayandı, kömək əlini uzatdı və heç bir tərəddüd etmədən Ermənistanla sərhədlərini bağladı. Əslində qardaşlığı əks etdirən bu təqdirəlayiq hadisələr, qiymətli nümunələr, həyatın içindən gələn örnəklər daha çoxdur. Ağır durumda olan Naxçıvana Türkiyədən ümid yolu açıldı. Sonra 2020-ci ildə Azərbaycan ən çətin sınaq qarşısında dayandı, Ermənistanın hərbi təcavüzünə son qoyulması üçün cəbhə bölgəsində silahlar işə düşdü. Həmin çətin illərdə sözün əsl mənasında qardaş qardaşa qucaq açdı, əllərimiz kimi ruhumuz da birləşdi, könüllərdəki həsrətə son qoyuldu. Həyatın bütün sahələrində sarsılmaz bağlar yarandı, əlaqələr daha da genişləndi, Ulu Öndərin dediyi "bir millət, iki dövlət" kəlamı həqiqəti, tarixi kökləri, qardaşlığı əks etdirir.

Bəşəriyyətin bütün tarixi boyu böyük dühalar mənsub olduqları ölkənin gələcək inkişaf yollarını əvvəlcədən görə bilmiş, həmin ali məqsədə çatmaq üçün xalqı mübarizəyə səfərbər etməyi bacarmışlar. Uzaqgörənlik, möhkəm siyasi iradə, aydın milli mövqe və dönməz mübarizə əzmi Ulu Öndərin xarakterinin əsas xüsusiyyətlərini təşkil edir. Məhz Heydər Əliyevin fədakar və qətiyyətli fəaliyyəti sayəsində tarixi İpək Yolu üzərində, Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan əsrlər boyu fərqli sivilizasiyaların bir araya gəldiyi, milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, müxtəlif millətlərin və konfessiyaların nümayəndələrinin sülh, anlaşma və dialoq şəraitində yaşadığı məkan kimi tanınmışdır. Əlverişli coğrafi şəraiti, təbii imkanlar, münbit və bərəkətli torpaq, ən əsası isə, Azərbaycan xalqının səmimiyyəti, xoşniyyətliliyi və mehribançılığı burada ayrı-ayrı etnosların birlikdə yaşamasını şərtləndirmişdir. Bu birgəlik tarixdən bu günümüzə genişlənərək heç kimsənin milli-mənəvi baxımdan assimilyasiyası ilə nəticələnməmiş, əksinə, dini və milli-etnik mənsubiyyətindən asılı olmayaraq hər kəs mövcud mədəni zənginlikdən bəhrələnmişdir. Azərbaycanın inkişaf tarixinin təxminən son yarım əsrlik dönəminə diqqətlə nəzər salsaq, gələcəyə istiqamətlənmiş, dayanıqlı inkişafı təmin edən və cəmiyyətin hər bir üzvünün rifahına xidmət göstərən müdrik və uzaqgörən siyasətin nəticələrini görə bilərik. Bütün bunlar Ulu öndər Heydər Əliyevin Vətənə sonsuz xidmətləri hesabına başa gəlib. O, öncə vətənpərvər, Vətənini sevən bir insan, sonra isə böyük dövlət xadimi idi.

Təməli dahi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulan iqtisadi, siyasi, sosial və mədəni inkişaf xətti bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Uğurlu inkişaf modelinə uyğun olaraq Azərbaycanın dünyanın qabaqcıl, aparıcı dövlətləri sırasında tutduğu mövqe hər il daha da möhkəmlənir. 2003-2024-cü illər ərzində möhtərəm Prezidentimizin rəhbərliyi ilə ölkəmizdə möhtəşəm tarixi nailiyyətlər qazanılıb. Azərbaycan qüdrətli dövlətlər sırasına daxil olub, ölkəmizin siması başdan-başa dəyişib. "Mən Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm". Öz sözünə sadiq qalan müzəffər Prezidentimiz, Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində cəsur, igid, məğlubedilməz, rəşadətli ordumuz və mübariz xalqımız onun ətrafında "dəmir yumruq" kimi sıx birləşərək 44 gün ərzində düşməni darmadağın etdi, diz çökdürdü, ağ bayraq qaldırmağa, kapitulyasiya aktına imza atmağa məcbur etdi. Şəhidlərimizin qanı və canı bahasına işğaldan azad edilmiş bütün torpaqlarımızda Azərbaycan bayrağı ucalır. Bu gün biz qalib xalqın övladları olmağımızla fəxr edirik. Azərbaycan tarixində heç bir vaxt belə qələbə, belə parlaq zəfər əldə olunmayıb. Qarabağın azad olunması Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu idi. Ata vəsiyyətini şərəflə yerinə yetirən, Qarabağın Fatehi, Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyanın ən möhtəşəm ölkəsinə çevrilir və bu hər birimizi sevindirir, gələcəyə ruhlandırır.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 13 iyul (№ 142).-